# BAKI UNİVERSİTETİNİN
# XƏBƏRLƏRİ

ВЕСТНИК
БАКИНСКОГО УНИВЕРСИТЕТА

NEWS
OF BAKU UNIVERSITY

SOSİAL-SİYASİ
*elmlər seriyası*

*серия*
СОЦИАЛЬНО-ПОЛИТИЧЕСКИХ НАУК

*series of*
SOCIAL-POLITICAL SCIENCES

№ 3, 2025

**Bakı – 2025**

*Baş redaksiya heyəti:*

**Babayev E.S.** (baş redaktor), **Kazımzadə A.H.** (baş redaktorun müavini), **Əliyeva İ.N.**, **Məmmədov Y.Ə.**, **Əliyev İ.Ə.**, **Paşayeva N.A.**, **Rəcəbov M.R.** (məsul katib).

*Seriyanın redaksiya heyəti:*

**Məlikova M.F.** (redaktor), **Vahidov F.Q.** (redaktorun müavini), **Hacıyev Z.C.** (məsul katib), **Abbasbəyli A.N.**, **Əhmədov Ə.C.**, **Əliyev B.H.**, **Əlizadə H.Ə.**, **İsmayılov R.R.**, **Məhərrəmov A.M.**, **Qasımov A.M.**, **Məmmədov R.F.**, **Rüstəmov İ.Ə.**, **Əliyev Ə.İ.**, **Həsənalıyev Z.M.**, **Əliyeva K.R.**

***© Bakı Dövlət Universiteti, 2025***

BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№3* ***Sosial-siyasi elmlər seriyası*** **2025**

## PEDAQOGİKA

# ETNOPEDAQOGİKANIN TƏRKİB HİSSƏLƏRİNDƏN BİRİ OLAN DASTANLARDA TƏRBİYƏ MƏSƏLƏLƏRİ

**L.N.QASIMOVA**
**Orcid id:0009-0008-5301-2415**
***qasimovalzif@gmail.com***

*Etnopedaqogika xalqın yaradıcılıq məhsulu olan folkloru tədqiq edib öyrənən elm sahəsidir. Azərbaycan xalqının çox qədim dövrlərdən başlayaraq yaranan şifahi söz sənəti ağızdan-ağıza, nəsildən-nəslə keçərək cilalanıb durulmuş və bu günədək gəlib çatmışdır. Bu sənət abidələri içərisində dastanlar da xüsusi yer tutur. Məqalədə dastanlar məzmun baxımından qruplaşdırılmış və onların hər birinin tərbiyəvi imkanları üzə çıxarılmışdır. İstər qəhrəmanlıq, istər məhəbbət, istərsə də ailə-məişət dastanları tərbiyəvi baxımından təhlil olunaraq onların mahiyyəti açıqlanmışdır. Bununla bərabər dastanın böyüyən nəslin tərbiyəsinə təsiri gündəmə gətirilmişdir. Məqalədə problemlə bağlı pedaqoqların fikirləri də izah olunmuş və ümumiləşdirilmişdir. Eyni zamanda dastanlar problem baxımından tutuşdurulmuş, oxşar cəhətləri müəyyənləşdirilmiş, onların müqayisəli təhlili verilmişdir.*

**Açar sözlər:** dastan, etnopedaqogika, tərbiyə, Dədə-Qorqud, Koroğlu, Qaçaq Nəbi, Qaçaq Kərəm, Şah Abbas

**https://doi.org/10.30546/209300.305.2025.3.022**

Etnopedaqogikanın epik növünü təşkil edən dastanlar rəngarəng mövzularla, zəngin janr xüsusiyyəti ilə fərqlənir. Azərbaycan söz sənətini dastanlarsız düşünmək olmur. Dastanlar geniş xalq kütləsinin canlı tarixidir. Burada xalqın mübarizələrlə dolu keçmişi, müxtəlif əsrlərdə bədii təfəkkür tərzi, ailə, əxlaq, mərifət məsələləri cəmlənmişdir. Azərbaycan dastanları məzmun baxımından rəngarəng olduğu kimi, say baxımından da çoxluq təşkil edir. Dastanları aşağıdakı kimi qruplaşdırmaq məqsədəuyğun sayıla bilər.

1. Qəhrəmanlıq dastanları;
2. Məhəbbət dastanları;
3. Ailə-əxlaq dastanları;

Qəhrəmanlıq dastanları müsbət surətlərin səciyyəvi xüsusiyyətlərini

əks etdirir. Dastan qəhrəmanlarının mənəvi aləmi yalnız bir epizodun təsiri ilə məhdudlaşmır, bütöv bir əsrin, dövrün, epoxanın əsas xüsusiyyətlərini özündə ümumiləşdirir. Qəhrəmanlıq dastanları sırasına "Kitabi-Dədə Qorqud", "Koroğlu", "Qaçaq Nəbi", "Qaçaq Kərəm"i və s. daxil etmək olar.

"Kitabi-Dədə Qorqud" dünya türkoloqları tərəfindən hərtərəfli, əhatəli və ən çox tədqiq olunan Azərbaycan xalq dastanıdır. Professor M.H.Təhmasib yazırdı ki, "...Dədə Qorqud bizə geniş mənalı, geniş məzmunlu bir sənətkar surətidir" (5, s. 30). Məhz bu səbəbdəndir ki, türk xalqları Dədə Qorqudla bağlı maraq doğuran əfsanələr yarada bilmişdir. Bunlardan bəzilərinə nəzər salaq.

...Dədə Qorqud musiqi aləti düzəltmək istəyir, lakin hansı ağacdan düzəldilməsini bilmir, çünki hər ağacdan musiqi aləti düzəltmək olmazdı... O, nə qədər çalışırsa bir şey əldə edə bilmir...bütün günü meşədə ağac axtarır. Bir gün də meşədə ağac axtararkən şeytanlara rast gəlir. Şeytanlar ondan xahiş edirlər ki, qayırdığı musiqi alətini onlara göstərsin. Dədə Qorqud özünü meşədən çıxan kimi göstərir, özünü şeytanların fikrindən yayındırıb gizli olaraq onların söhbətlərini dinləyir. Şeytanlar öz-özlərinə deyirlər: ... Qorqud ata qopuz qayırmaq istəyər, lakin onu düzəldə bilmir, çünki Qorqud ata bilmir ki, hər ağacdan qopuz olmaz, gərək vəhşi qabanın sındırdığı lox-jid ağacından qopuza qol düzəltsin, onun üzərinə bozlağan dəvə gönü çəksin. Yaxşı kişnəyən day quyruğundan isə tel hazırlasın. Onları quru balqabaq dayaq üzərində möhkəmlədib, sonra onun tellərinə sasık-kuray yapışqanı sürtsün. Bundan sonra qopuzu düzəltmək olar" (5, s.38).

Başqa bir əfsanədə isə Dədə Qorqudun yaşamaq üçün mübarizəsindən bəhs olunur. Qorqud ata bir gecə yuxuda görür ki, qəbir qazırlar. O soruşur: " Bu qəbri kimin üçün qazırsınız? Cavab verirlər ki, Dədə Qorqud üçün qazırıq. Dədə Qorqud ölümdən qorxaraq dünyanın obiri tərəfinə qaçır. Əzrayil onu izləyir. Qorqud dənizin ortasına qaçır. Yüz il orada qopuz çalaraq yaşayır. Musiqinin səsindən ölüm ona yaxın dura bilmir. Axırda bir anlığa gözünə yuxu gedir, ölüm ilan cildində onu sancıb öldürür. Professor M.H. Təhmasib əfsanənin məzmununu belə mənalandırır. Əslində Dədə Qorqud ölümdən nə qorxur, nə də qaçır. Əksinə o ölümə qarşı vuruşur, əbədiyyət uğrunda çarpışır. İgidlik, qəhrəmanlıq, vətənpərvərlik, elə-obaya bağlılıq Dədə Qorqudun həyatının mənasıdır. Əgər Qorqud qopuz düzəltməyi səbrlə dinləyib icra edirsə və ya ölümə qalib gəlməyi bacarırsa bu onun cəsarətlilik, səbrlilik, dözümlülük keyfiyyətinə malik olmasından soraq verir.

"Kitabi-Dədə Qorqud" boyları igid, qəhrəman övladların həyat yolunu özündə cəmləşdirir. Dastanda Tamğan oğlu Bayandurun bütün boylarda adı çəkilsə də, əslində o dastanın fəxri qəhrəmanıdır. Bayandur xanın hadisələrdə iştirakı bir növ Dədə Qorqud kimidir. Onun da əsərdə adı çəkilir, bütün Oğuz igidləri onun bir sözünü iki etmirlər. Bayandur xanı, Oğuz qəhərmanlarının heç birini döyüş meydanında görmürük, lakin toyda, düyündə, şənliklərdə iş-

tirak edirlər. Oğuz elinin qılınc qəhrəmanı, cəngavəri Qazan xandır. Oğuz eli onu mərdliyinə, qəhrəmanlığına görə sevir. Dastanda cərəyan edən hadisələrin mərkəzində Qazan xan dayanır. Boyların bəziləri Bayandur xanın adı ilə başlasa da, hadisələrin inkişafına təkan verən əsas obraz Qazan xandır. Odur ki, oğuzların döyüş səhnələri, düşmənlərlə mübarizə, ümumiyyətlə, o dövrün vacib məsələləri Qazan xansız ötüşmür. Dastanın bütün boylarında bu problem özünü göstərir. Dastanda istər kişilər, istərsə də qadınlar at çapmaqda, qılınc oynatmaqda əvəzsizdirlər. Bunlar isə dastanın igid qəhrəmanlarının fəaliyyət simvoludur.

Dünya xalqlarının yaratdığı incilər sırasında "Koroğlu" dastanı da özünəməxsus yerlərdən birini tutur. Çox dəyərli əsər əsrlər boyu ədalətsizliyə, zülmə qarşı mübarizə aparan xalq kütləsinin bədii təfəkkürünün, düşüncəsini məhsulu olan qiymətli sənət incilərindəndir. "Koroğlu" dastanından bəhs edən tədqiqatçılar, onun şairliyini də unutmamışlar. Döyüş meydanına girən Koroğlu deyir;

Hoydu, dəlilərim, hoydu!
Yeriyin düşmən üstünə,
Havadakı şahin kimi
Tökülün al qan üstünə.

"Koroğlu" dastanında onun əsas surətlərinin bir xarakter kimi bədii zirvəyə qaldırılmasında xalqın bədii imkanlarından yüksək dərəcədə istifadə edildiyini görmək olur. "Koroğlu" dastanında xalq öz tarixini Koroğlu obrazında ümumiləşdirmişdir. Koroğlu obrazı məharəti ilə seçilir. Belə ki, bir çox səfərlərində Koroğlu düşmənlə üz-üzə gəldiyi zaman ilk öncə onları sarsıtmağa çalışır, psixoloji təsir göstərir, hərbə-zorba gəlir. Özünün yaxın silahdaşları olan misri qılıncından, Qırat və Düratdan bəhs edir. Dastandan oxuyuruq: Dastanın ilk qollarında, hələ Koroğlunun igidliyi bütün elə-obaya yayılmamış, o, qorxulu düşmən olan yollar cəngavəri Dəli Həsənlə qarşılaşır. Dəli Həsən adi sözlə özünün igidliyini danırsa, Koroğlu hərbə-zorba ilə ona cavab verir, sözünün hünəri ilə Dəli Həsəni sarsıdır:

Acıqlanma Dəli Həsən,
Misri Qılınca qataram.
Atılaram şeşbər kimi,
Bağrın başına bataram.

Namərd nədir, özün öyə?
Meydanda mərd igid söyə?
Qaçıb çıxar olsan göyə,
Kəmənd tullayıb tutaram (5, s.324).

Koroğlunun məğlub edilməzliyi üç şeylə əlaqələndirilir. Onun Qıratı, Misri qılıncı, nərəsi və şairliyi. Koroğlunun məğlubedilməzliyini onun nərəsi

ilə bağlayırlar. O, şairliyi ilə düşməni sarsıtsa da, nərəsi sanki fiziki qüvvə hesab olunur. Dastandan bəzi məqamlara diqqət edək; "Koroğlu dedi: yaxşı, bəs sən heç nədən qorxmursan? Dəmirçioğlu dedi: mən onun nə qılıncından qorxuram, nə şeşpərindən, nə də dəlilərindən. Amma deyirlər dava eliyəndə onun bir nərə çəkməyi var. Qorxsam-qorxsam bəlkə bircə o nərədən qorxam... Koroğlu daha danışmadı. Bir az getdilər... ağzını onun qulağına dayayıb, bir dəli nərə çəkdi, Dəmirçioğlu aşıb düz Qıratın ayaqlarının altına düşdü." Koroğlu hər döyüşdə yox, yalnız bərk ayaqda nərə çəkərdi.

Etnopedaqoji tədqiqatlarda qəhrəmanlara misli-bərabəri olmayan köməklik göstərən atların öyrənilməsi də vacib sayılmışdır. Bəzən insanların bədii yaradıcılığında, bədii obrazların təsvirində atlar öz sahibləri ilə birlikdə insanların arzu və istəklərini həyata keçirən əsas qüvvə kimi tərənnüm olunur. Ümumiyyətlə, folklorumuzda qəhrəmanlara aid atların öyrənilməsinə də yer ayrılmışdır. Düzdür, bu problemin öyrənilməsində tədqiqatlara ehtiyac çoxdur. Belə ki, Qırat kimi əfsanəvi atların tədqiqinə folklorşünaslıqda böyük ehtiyac duyulur, bu gün də bu ehtiyac qalmaqdadır. Dastanda Koroğlu ilə bərabər, sanki onun atının da şücaəti önə çıxır və bu baxımdan da hər ikisi sevilən obraza çevrilir. Əsərdə Koroğlunun qəhrəmanlığı romantik çizgilərlə ortaya qoyulursa, Qıratın hünəri möcüzə kimi əks etdirilir. Belə ki, düşmənlər Qıratın sıçrayışını, qaçışını möcüzə hesab edir, Koroğlunu əfsanəvi qəhrəmanı kimi görürlər. Əsərdən oxuyuruq: "Eyvazın əldən getməyi bir tərəfdən, Koroğlunun Çənlibeldən gəlib Təkə-Türkmanda belə iş görməyi Ərəb Reyhana çox ağır gəldi. Başının adamlarına hay vurub Koroğlunun dalına düşdü... Gəlib keçidi kəsdi... Bura elə keçiddir ki, Tükmandan gələn yolların hamısı gəlib buradan keçirdi... Ərəb Reyhan buranı yaxşı tanıyırdı. Bilirdi ki, uçurumdan keçmək mümkün deyil, Koroğlu axırda keçidə düşəcək, ya da qalıb orda acından öləcək... Koroğlu Qıratın cilovunu çəkib uçuruma tərəf sürdü. Ərəb Reyhan bunu görüb dedi: Bu adam dəlidir, ya da elə dəlidirki var. Yoxsa o uçurumdan da at atılar? Özü də üstündə iki adam. Koroğlu atı bir də covlana çəkdi... Koroğlu atı süzdürüb uçurumun başına gəldi, ata bir qırmanc vurdu. Qırat dörd ayağını yığışdırıb, qızılquş kimi sıçradı, uçurumun o tərəfinə düşdü. Özü də elə sıçradı ki, Koroğlunun başından papağı tərpənmədi..." (6, s. 326).

Döyüşlərdə Koroğlu ilə bərabər Qırat da vuruşur və ya onun köməyi çox olur. Əsərdə Koroğlu qəhrəmanlarının igidliyi, cəngavərliyi, şücaəti onun ayrı-ayrı səfərlərində aydın görünür. Sədaqətlilik, el-obaya bağlılıq, məhəbbət, səhvləri bağışlamağı bacarmaq əsərin leytmotivləridir. Dastanda qadınlar da igidliyi ilə seçilir, sədaqətlilik rəmzinə çevrilirlər. Koroğlu dastanında müsbət obraz kimi canlanan Nigar azadfikirli xanım kimi verilir. İnsanlara yaxşı nəzərlərlə baxır, pis əməllərdən uzaqdadır. Xüsusi mülkiyyətə, insanı kor edən, mənəvi cəhətdən şikəst edən vara-dövlətə fikir vermir. Nigar Koroğluya yazdığı məktubda göstərir:

... Mən Xotkar qızıyam, Nigardır adım,
Xanlara, bəylərə məhəl qoymadım.

Nigar Koroğlunu çox sevir, o xotkarların, paşaların bata bilmədiyi bir dünyada yaşamaq istəyir. Nigarın sədaqəti, məhəbbəti formalaşan övladlar üçün mənəvi bir məktəbdir. Əsərdə çox da qabarıq görünməyən Bənövşə xanım surəti də diqqəti cəlb edir. O, əl qabiliyyəti ilə seçilən şəxsiyyətlərdəndir. Koroğlu tacir Hacı Xəlilin satmaq istədiyi xalçaya valeh olur, digər tərəfdən isə Koroğlunun dəlilərinə qoşulan zəncir Həmidin həmin xalçanı toxumuş qıza aşiq olduğu xəbəri onu çox sevindirir. Koroğlu onu bu qabiliyyətinə görə Çənlibelə gətirmişdir. Bənövşə xanım nəcibliyi, nəzakəti ilə seçilən qadınlardandır. Dastanda belə ləyaqətli qadınlar çoxdur. Onlardan biri də "Mərcan xanımın Çənlibelə gəlməsi" qolunda verilən qadın obrazıdır. "Məhbub xanımın Çənlibelə gəlməsi" ilə bağlı olan qolda sanki əvvəlki qolun davamı kimi səslənir. Buraya Leyla xanımın əlavə olunması, dastanın mənəvi dəyərlərlə zənginliyini bir daha nümayiş etdirdi. Ümumilikdə "Koroğlu" dastanını qəhrəmanlıq, igidlik dastanı ilə bərabər, yurda, elə-obaya bağlılıq, şərəf, ləyaqət, namus, qeyrət kimi mənəvi dəyəri özündə əks etdirən etnopedaqoji əsər kimi də qiymətləndirmək olar. Qırat kimi əvəzsiz bir at, Misri qılınc kimi ildırımdan yaranmış bir qılınc Koroğludan başqa heç kəsdə yoxdur. O, misri qılıncını tərif edərək deyir;

Əlimdən gələrsən cana
Misri qılınc sığmır qına
Çəksən boyanarsan qana
Tök malını, get bəzirxan

Koroğlu tüfəng icad olunduqdan sonra "bic əyyamı, namərd dünyası"- gəldiyini deyib Koroğluluqdan əl çəkir. Qıratın nalını söküb buraxır, dəliləri (7777 dəlini) azad edir, özü isə Nigar xanımı (qadınını) götürüb Çənlibeldən uzaqlaşır.

Qəhrəmanlıq dastanları arasında "Qaçaq Nəbi" də xüsusi yer tutur. XIX əsrin 70-ci illərinə təsadüf edən, Azərbaycanda yaranan və əsrin sonlarına qədər davam edən kəndli üsyanına başçılıq edən Qaçaq Nəbinin adı ilə bağlı olaraq yaranan bu dastanda epik qəhramanlıq səhnələri, maraqlı döyüş epizodları ilə yanaşı, ölməz bədii surətlər də vardır. Dastanın ayrı-ayrı epizodlarında Nəbinin başçılıq etdiyi silahlı kəndli dəstəsi düşməni ağır məğlubiyyətə uğradır, pristavı, naçalniki və qubernatorları pis vəziyyətə salırlar. Xalqın mənafeyini müdafiə edən bu qəhrəmanlar hər yerdə haqsızlığa, zülmə və istismara qarşı qətiyyətlə döyüşürlər.

Dastanda müsbət surətlər az olsa da, düşmən qüvvələr çoxluq təşkil edir. Nəbinin ətrafında cəmlənənlər el-obasını sevən, vətənin qeyrətini çəkən, zülmə qarşı ədalətli olanlardır. Onlar xalqın müdafiəsinə qalxmış, əzilən sin-

fin yanında olmuşlar. 26 döyüş səhnəsindən ibarət olan dastan özündə ədalətlilik, cəsarətlilik, igidlik, şücaətlilik, vətənpərvərlik kimi mənəvi dəyərləri birləşdirmişdir. Nəbinin yaxın silahdaşı sayılan Həcər nəinki onun xanımı, eyni zamanda əzilən sinfin müdafiəçisinə çevrilmişdir. Həcər əsərin real surətidir. Həcər haqqında onu görənlər igid, mərd, sədaqətli, qorxmaz qadın obrazını canlandırılar. Nəbi Həcəri hər şeydən əvvəl yaxın silahdaşı hesab edir, onun qəhrəmanlığı və şücaəti ilə qürur duyur. Şeirlərinin birində Həcəri özündən qoçaq və cəngavər kimi təsvir edir:

... Mehdinin əlindən dad edir fələk,
Naçalnik dad çəksin əlimdən gərək,
Həcərə yaraşır desinlər "pələng",
Mahalda deyirlər qaçaqdır Nəbi!
Arvadı özündən qoçaqdır Nəbi!

Nəbi Həcərin igidliyini göstərəndə çəkinmir, əksinə onu sevindirir, döyüşə girməyə qol-qanad verir. "Qaçaq Nəbi" dastanındakı müsbət qəhrəman surətlərini əvvəlki əslərdə yaranan dastanlarımızın qəhrəman obrazları ilə müqayisə etsək, onların fərqli cəhətlərini aydın görmək olur. Əgər Dədə Qorqud, Koroğlu, dastanlarında igid, cəsarətli, qorxmaz, surətlərin yaranmasında əsatiri ünsürlər, bəzən sehrli qüvvələr, ümumiyyətlə, xalq fantaziyası əsas rol oynayırsa "Qaçaq Nəbi" qəhrəmanlarında bu xüsusiyyəti görmək olmur. Onlar tarixi şəraitin yetirdiyi zərurətdən yaranan real qəhrəmanlardır. Zamanın sərt və ağır qanunları bu qəhrəmanların adlarını tarixin səhifələrinə köçürmüş, onları orada əbədiləşdirmişdir. Qaçaq Nəbi xalqın yaddaşında igidliyi və qorxmazlığı ilə yaşadığından onu ölməzlik zirvəsinə qaldırmışdır. Düzdür əsərin ən təsirli səhnələrindən biri Nəbinin öldürüldüyü səhnə olsa da, onun ölümü ilə əlaqədar yaradılan şerlər, məzarı üstə oxunan ağılar onun ölməzliyindən soraq verir.

Sənə yaralı qurban,
Bağrı yaralı qurban,
Sənin təzə yarana,
Köhnə yaralı qurban.

və ya

Qan ağla sən, əziz ellərim mənim,
Gör necə solubdur güllərim mənim,
Tutulub, lal olub dillərim mənim,
Darasın saçını tellər ağlasın!
Yerisin üstünə ellər ağlasın!

XIX əsrin II yarısında Azərbaycan ərazisində qəhrəmanlığı ilə tanınan onlarla adlı-sanlı igidlər olmuşdur. Onlardan biri də Qaçaq Kərəmdir. Azərbaycanın tanınmış dramaturqu M.B.Vəzirov "Keçmişdə qaçaqlar" pyesinin bəzi hadisələrini Kərəmin haqqında eşitdiyi və bəlkə də gördüyü hadisələr

əsasında vermişdir. Qaçaq Kərəm yoxsul kəndliləri həmişə müdafiə etdiyi üçün elə onlara da sığınırdı. Kərəm ədalətlilik simvoludur. O, haqsızlığa, özbaşınalığa dözmür, yoxsul kəndlilərin havadarı, xilaskarıdır. Ona görə də Kərəm xalqın sevimli qəhrəmanına çevrilmişdir. "Qaçaq Kərəm" dastanında ziddiyyət iki şəxsin adı ilə bağlıdır: Qaçaq Kərəm və İsrəntil ağa. Onlar yaxın dost olsalar da birdən-birə aralarında düşmənçilik hissləri yaranır. Buna səbəb bəyin kəndliyə münasibəti məsələsi olur. Dastanda haqsızlığa, zülmə qarşı dayanan Qaçaq Kərəm obrazı dayanır.

"Qaçaq Kərəm" dastanında Kərəm yoxsul yaşayan kənd adamları ilə daim ünsiyyətdə verilir, onlara arxalanır, həmişə onların müdafiəçisi olur. O, qubernatorun haqsız hərəkətlərinə dözmür, onun silahdaşlarını yoxsul kəndlilərdən uzaqlaşdırır, qubernatordan on min manat alıb kəndlilərə paylayır. Dastanda Qaçaq Kərəm yoxsul kəndlilərin havadarı, xilaskarı kimi təsvir edilir. Bu da dastanın tərbiyəvi imkanını artırmış olur.

Etnopedaqogikada məhəbbət dastanları da xüsusi yer tutur. Bu sıraya "Şah İsmayıl", "Abbas və Gülgəz", "Novruz və Qəndab", "Məhəmməd və Güləndam" və s. daxil etmək olar. Azərbaycan xalq dastanlarının bir hissəsi azad məhəbbətin tərənnümü ilə bağlıdır. Bu dastanların formal əlamətləri vardır. Belə ki, məhəbbət dastanları ustadnamə ilə başlayır, duvaqqapmalarla bitir. Yalnız sonu faciə ilə nəticələnən məhəbbət dastanlarında duvaqqapma olmur. Dastanların ustadnamə ilə, ümumiyyətlə, həkimanə sözlərlə başlaması qədim ənənə ilə əlaqədardır.

Məhəbbət dastanları xarakterinə görə fərqlidir. Burada qəhrəmanlar öz arzusuna yalnız sözün gücü ilə deyil, şəxsi qəhrəmanlığı və gücü ilə nail olurlar.

Sözün qüdrəti, gücü ilə məqsədə nail olmaq, tilsimləri açmaq, təbiət hadisələrindən qorxmamaq, onlara qalib gəlmək dastanlarda geniş yer tutur. Ümumiyyətlə, çətinliyə düşən qəhrəmanlar daxili həyəcanların, arzu və istəklərini şeirlə deyirlər. Məsələn: "Şah İsmayıl dastanında Gülzarın arxasınca gedən şahzadə Rəmdar Pərinin qəsrinə rast gəlir. Nə qədər çalışırsa qəsrə yol tapa bilmir. Sazı sinəsinə basıb yol istəyir:

... Hərləndim yoxdur qapısı,
Saray səndən yol istərəm
Uca yapılıb yarısı
Saray, səndən yol istərəm.

Bundan sonra Şah İsmayıl gücü isə hasarı dağıdıb saraya girir. Belə epizodlara "Novruz", "Əsli və Kərəm", "Aşiq Qərib" dastanlarında da rast gəlinir. Dastanda Şah İsmayılın mübarizliyi, cəsarət və mətinliyi də öz əksini tapmışdır. Məlumdur ki, xalq yaradıcılığına bədbinlik yaddır. O nikbin əhvali-ruhiyyəni irəli çəkir. Nə qədər çətinliklər, ağır dəqiqələr, illərlə ayrılıq və həsrət olsa da, yenə xalqın yaratdığı qəhrəmanlar ruhdan düşmür. Bütün çətinliklərə sinə girir, mübarizə aparır və nitqində məqsədlərinə çatırlar. Ro-

mantik səhnələr, xalq yaradıcılığına xas olan fantaziya olsa da, real hadisələr fonunda inkişaf edir, xalq kütləsinin zehni və düşüncəsinə hakim olan məsələlərini bədii mənzərəsinə yaradır. Qəhrəmanlıqlarını əks etdirir, onun tablosunu göstərir. Bu dastanlarda da qəhrəmanlıq, qorxmazlıq, cəsarət kimi dəyərlər özünü göstərir.

"Abbas və Gülgəz" dastanında da xalqın qanını somuran, onları incidən, namusunu tapdalayan, çirkin mənəvi simalara rast gəlinir. Dastanda Şah Abbas ədalətsizliyi, zülmü ifşa olunur. Burada dastanı oxunaqlı edən incə məsələlərə də yer ayrılır. Belə ki, əsərdə xalqın mənliyinə toxunmaq, namusunu tapdalamaq, şərəfini ləkələmək və s. kimi hallara yol verilmir, bu amillərə göz yumulmur, onlara qarşı mübarizə aparılır. Aşıq Abbas Şah Abbas zülmünə qarşı mübarizə aparan qəhrəmanlardandır. Şah Abbasa qarşı sonsuz və intiqam hissini belə ifadə edir:

Siyah zülfün dal gərdəni döydümü?
Onun dərdi mənim qəddim əydimi?
Zalım şahin əli sənə dəydimi?
Dağıdaram xanımanını, əzizim!

Şeirdə zülmkar şahın ədalətsizliyinə üsyan edən "Xanıman dağıtmaq" istəyən aşığın haqq səsinin intiqama çevrilməsidir.

Etnopedaqogikada yer qazanan dastanlar mövzu baxımından rəngarəngdir. Müxtəlif istiqamətlərdə öz yerini müəyyənləşdirən dastanların yüzlərlə rəvayətləri yaşamaqdadır. Pedaqogika elminin formalaşmasında böyük rol oynayan etnopedaqogika dastanlarımızın tərbiyəvi xüsusiyyətlərini böyüyən nəslə çatdırmağı zəruri saymışdır. Çünki prof. İ.Əliyevin dediyi kimi "insanın mənəvi təkamülündə tərbiyənin müəyyən səviyyəsini, konkret tarixi mərhələni əks etdirərək pedaqoji elmin yaranması və inkişafı üçün bir əsər rolunu oynayır" (3, s.35).

**ƏDƏBİYYAT**


1. Azərbaycan dastanları. I cild. - Bakı, - 2005.
2. Azərbaycan folkloru etnopedaqogikası. VI cild. - Bakı, - 2002.
3. Əliyev İ.İ. Azərbaycan etnopedaqogikası, - Bakı, - 2009.
4. Həşimov Ə.S. Azərbaycanda xalq pedaqogikasının bəzi məsələləri. - Bakı, - 1970.
5. Vəliyev Vaqif. Azərbaycan folkloru, - Bakı: Maarif, - 1985.
6. Təhmasib M.H. Azərbaycan xalq dastanları (orta əsrlər). - Bakı, - 1972.

## ПРОСВЕЩАТЕЛЬНАЯ ПРОБЛЕМАТИКА В ПОСЛАНИЯХ КАК КОМПОНЕНТ ЭТНОПЕДАГОГИКИ

**Л.Н.ГАСИМОВА**

### РЕЗЮМЕ

Этнопедагогика — это научная дисциплина, изучающая фольклор как творческое выражение народной культуры. Устное литературное наследие азербайджанского народа, берущее начало с глубокой древности, передавалось из уст вуст из поколения в поколение, совершенствовалось и сохранилось до наших дней. Особое место в этом наследии занимают дастаны — эпические повествования, отражающие мировоззрение и нравственные ориентиры народа.

В данной статье дастаны классифицируются по тематическому содержанию и анализируются с точки зрения их воспитательного потенциала. Геройские, любовные и семейные бытовые дастаны рассматриваются как средства формирования нравственных и гражданских ценностей. Особое внимание уделяется их влиянию на воспитание подрастающего поколения.

Кроме того, в статье проводится сравнительный анализ дастанов, выявляются общие мотивы и педагогические аспекты, прослеживающиеся в различных произведениях. Также обобщаются взгляды педагогов на значимость дастанов в процессе морального и патриотического воспитания. Таким образом, подчёркивается важная роль дастанов в передаче культурных традиций и формировании национального самосознания.

**Ключевые слова:** эпос, этнопедагогика, воспитание, Деде Коркут, Короглу, Качак Неби, Качак Керем, Шах Аббас

## EDUCATIONAL ISSUES IN EPISTLES, AS A COMPONENT OF ETHNOPEDAGOGY

**L.N.GASIMOVA**

### SUMMARY

Ethnopedagogy is a field of study that investigates and examines the folklore, a creative product of the people. The oral tradition of Azerbaijani folk art, which began in ancient times, has been passed down orally from generation to generation, refined and perfected over time, and has reached us to this day. Among the cultural artifacts of this tradition, epics hold a special place. In this article, epics are grouped based on their content, and the educational potentials of each are highlighted. Whether heroic, romantic, or family-daily life epics, they are analyzed from an educational perspective, and their essence is revealed. Moreover, the influence of epics on the education of the growing generation is brought to the forefront. The article also explains and summarizes the opinions of educators on the subject. At the same time, epics are contrasted in terms of their thematic elements, similarities are identified, and a comparative analysis is provided

**Keywords:** epic, ethnopedagogy, education, Dede Korkut, Koroglu, Qachaq Nabi, Qachaq Kerem, Shah Abbas

# MÜNDƏRİCAT

## HÜQUQ

**Səmədova Ş.T.**
Süni intellekt və cinayət hüququ: məsuliyyət problemləri .............................5
**Seykenov K.K., Samatuli B.A.**
Jeti jarği – Qazaxıstan hüquq tarixini formalaşdıran
Qazax xanlığının qanunlar toplusu ..............................................................21
**İsmayılov X.C.**
Azərbaycanda konstitusiyaçılığın tarixi-hüquqi təkamülünün bəzi
aspektləri (XX əsrin 50-60-cı illəri) .............................................................34
**Məmmədov R.K.**
Ətraf mühitin mühafizəsi – dövlətlərin beynəlxalq hüquqi öhdəliklərinin
zəruri şərti kimi: yumşaq hüquqdan (soft law) bərk hüquqa (hard law)
doğru inkişaf..................................................................................................55
**Nağızadə E.**
Kiberterrorçuluq – terrorçuluğun yeni forması kimi: anlayışı,
ictimai təhlükəliliyi, cinayət-hüquqi vasitələrlə mübarizə məsələləri ...........75
**Səmədov M.N.**
İnsan hüquqlarının hüquqi təminetmə üsulları ..............................................89

## BEYNƏLXALQ MÜNASİBƏTLƏR VƏ İQTİSADİYYAT

**Quliyeva G.M.**
Türk dövlətləri arasında Azərbaycan: birləşdirici güc və yeni rolu................102

## SOSİOLOGİYA

**Mikayılova N.E.**
Müasir cəmiyyətin mənəvi əsasları haqqında.................................................114

## PEDAQOGİKA

**Qasımova L.N.**
Etnopedaqogikanın tərkib hissələrindən biri olan dastanlarda
tərbiyə məsələləri..........................................................................................128

## СОДЕРЖАНИЕ

### ПРАВО

**Самедова Ш.Т.**
Искусственный интеллект и уголовное право:
вопросы ответственности ....................................................................5
**Сейтенов К.К., Бектен А.С.**
Жеті жарғы – свод законов казахского ханства,
формирующий историю права Казахстана ...............................................21
**Исмайлов Х.Дж.**
Некоторые аспекты историко-правовой эволюции
конституционализма в Азербайджане (50-60-е годы ХХ века) ...............34
**Мамедов Р.К.**
Защита окружающей среды – как необходимое условие
международно-правовых обязательств государств:
развитие от мягкого права к жестокому праву ........................................55
**Нагизаде Э.**
Кибертерроризм-как новая форма терроризма: понятие,
общественная опасность, вопросы борьбы уголовно-правовыми
средствами...................................................................................................75
**Самедов М.Н.**
Правовые способы обеспечения прав человека.........................................89

### МЕЖДУНАРОДНЫЕ ОТНОЕНИЯ И ЭКОНОМИКА

**Гулиева Г.М.**
Азербайджан среди тюркских государств:
объединяющая сила и ее новая роль.........................................................102

### СОЦИОЛОГИЯ

**Микаилова Н.Э.**
О духовных основах современного общества ..........................................114

### ПЕДАГОГИКА

**Гасимова Л.Н.**
Провещательная проблематика в посланиях как компонент
этнопедагогики ...........................................................................................128

# CONTENTS

## LAW

**Samadova Sh.T.**
Artificial intelligence and criminal law: responsibility issues........................5
**Seitenov K.K., Bekten A.S.**
Zheti zhargy – code of laws of the Kazakh khanate shaping
the history of the law of Kazakhstan ...............................................................21
**Ismayilov Kh.J.**
Some aspects of the historical and legal evolution
of constitutionalism in Azerbaijan (50-60s of the 20th century)....................34
**Mammadov R.K.**
Environmental protection -as a necessary condition for the international
legal obligations of states: development from soft law to hard law ...............55
**Nagizade E.**
Cyberterrorism as a new form of terrorism: concept, public danger,
issues of combating criminal law means ........................................................75
**Samadov M.N.**
Legal methods for ensuring human rights ......................................................89

## POLITICAL SCIENCE AND ECONOMY

**Quliyeva G.M.**
Azerbaijan among the turkic states: a unifying force and its new role...........102

## SOCIOLOGY

**Mikayilova N.E.**
On the moral foundations of modern society .................................................114

## PEDAGOGY

**Gasimova L.N.**
Educational issues in epistles, as a component of ethnopedagogy .................128

## MÜƏLLİFLƏRİN NƏZƏRİNƏ!

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının sədrinin 07.05.2021-ci il tarixli 48-01-947/16 saylı məktubunu əsas tutaraq «Bakı Universitetinin Xəbərləri» jurnalının redaksiya heyəti bildirir ki, nəşr etdirmək üçün təqdim edilən məqalələr aşağıdakı qaydalar əsasında tərtib edilməlidir:

1. Təqdim olunan məqalənin mətni – A4 formatında, sətirlərarası – 1 intervalla, yuxarıdan – 5 sm, aşağıdan – 3,75 sm, soldan – 4 sm, sağdan – 3,5 sm, Times New Roman – 12 (Azərbaycan dilində – latın əlifbası, rus dilində – kiril əlifbası, ingilis dilində – ingilis əlifbası ilə) şrifti ilə yığılmalıdır.

2. Hər bir məqalənin müəllifinin (müəlliflərinin) adı və soyadı tam şəkildə yazılmalı, elektron poçt ünvanı, çalışdığı müəssisənin (təşkilatın) adı göstərilməlidir.

3. Hər bir məqalədə UOT indekslər və ya PACS tipli kodlar və açar sözlər verilməlidir (açar sözlər məqalənin və xülasələrin yazıldığı dildə olmalıdır).

Məqalələr və xülasələr (üç dildə) kompüterdə çap olunmuş şəkildə disklə birlikdə təqdim olunur, disklər geri qaytarılmır!

Əlyazmalar kvartalın əvvəlindən bir ay keçməmiş verilməlidir.

4. Hər bir məqalənin sonunda verilmiş ədəbiyyat siyahısı Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının «Dissertasiyaların tərtibi qaydaları» barədə qüvvədə olan Təlimatının «İstifadə edilmiş ədəbiyyat» bölməsinin əlavə 4.1 tələbləri əsas götürülməlidir.

**Kitabların (monoqrafiyaların, dərsliklərin və s.) biblioqrafik təsviri kitabın adı ilə tərtib edilir**. Məs.: Qeybullayev Q.Ə. Azərbaycan türklərinin təşəkkülü tarixindən. - Bakı: Azərnəşr, - 1994. - 284 s.

**Müəllifi göstərilməyən və ya dörddən çox müəllifi olan kitablar (kollektiv monoqrafiyalar və ya dərsliklər) kitabın adı ilə verilir**. Məs.: Kriminalistika: Ali məktəblər üçün dərslik / K.Q.Sarıcalinskayanın redaktəsi ilə. - Bakı: Hüquq ədəbiyyatı, - 1999. - 715 s.

**Çoxcildli nəşrə aşağıdakı kimi istinad edilir.** Məs.: Azərbaycan tarixi: [7 cilddə], - Bakı: Elm, - 2000. IV c., - 456 s.

**Məqalələrin təsviri aşağıdakı şəkildə olmalıdır**. Məs.: Vəlixanlı N.M. X əsrin ikinci yarısı – XI əsrdə Azərbaycan feodal dövlətlərinin qarşılıqlı münasibətləri və bir daha «Naxçıvanşahlıq» haqqında // - Bakı: AMEA-nın Xəbərləri. Tarix, fəlsəfə, hüquq seriyası, - 2001. № 3. - s. 120-129.

**Məqalələr toplusundakı və konfrans materiallarındakı mənbələr belə göstərilir**. Məs.: Məmmədova G.H. Azərbaycan memarlığının inkişafında Heydər Əliyevin rolu / Azərbaycan Respublikasının Prezidenti H.Ə.Əliyevin 80 illik yubileyinə həsr olunmuş elmi-praktik konfransının materialları. - Bakı: Nurlan, - 2003. - s.3-10.

**Dissertasiyaya istinad belə olmalıdır.** Məs.: Süleymanov S.Y. Xlorofill-zülal kompleksləri, xlorplastların tilakoid membranında onların struktur-molekulyar təşkili və formalaşmasının tənzimlənməsi: Biol. elm. dok. dis. - Bakı, 2003. - 222 s.

**Dissertasiyanın avtoreferatına da eyni qaydalarla istinad edilir, yalnız «avtoreferat» sözü əlavə olunur.**

**Qəzet materiallarına istinad belə olmalıdır**. Məs.: Məmmədov M.A. Faciə janrının tədqiqi // «Ədəbiyyat və incəsənət» qəz., - Bakı, 1966, 14 may.

**Arxiv materiallarına aşağıdakı kimi istinad edilir**. Məs.: Azərbaycan Respublikası MDTA: f.44, siyahı №2, iş №26, vərəq.3-5.

İstifadə edilmiş ədəbiyyat siyahısında son 5-10 ilin ədəbiyyatına üstünlük verilməlidir.

Redaktoru: ***Məryəm Qədimova***

Korrektoru: ***Solmaz Babaşova***

Kompüter tərtibçisi: ***Azadə İmanova***

Çapa imzalanmışdır: 09.10.2025
Formatı: 70x100 1/16. Həcmi 9,0 ç.v. Sayı 100.
Bakı Dövlət Universitetinin Nəşr Evində çap olunmuşdur.
AZ 1148, Bakı ş., ak. Z.Xəlilov küçəsi, 33.
Tel: (+99412) 538 87 39 / 538 50 16
e-mail: bduneshrevi@bsu.edu.az
www.bsu.edu.az